AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU

*Əlyazması hüququnda*

**QƏDİM KƏRİM OĞLU QUBADOV**

# XV-XVI ƏSRLƏR SƏFƏVİYYƏ TƏRİQƏT ŞAİRLƏRİ

5716.01 – **Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## A V T O R E F E R A T I

**BAKI – 2013**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun «Orta əsrlər Azərbaycan ədəbiyyatı» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Əlyar Qurbanəli oğlu Səfərli**
*AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Möhsün Zellabdin oğlu Nağısoylu**
*filologiya üzrə elmlər doktoru, professor*

**Kamil Hüseyn oğlu Allahyarov**
*filologiya üzrə elmlər doktoru*

**Aparıcı müəssisə:** **Bakı Dövlət Üniversitetinin Klassik Azərbaycan ədəbiyyatı kafedrası**

**Müdafiə** «__27___» ___12______ 2013-cü il saat ___-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdindəki D.01.131- Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az-1143, Bakı, H.Cavid prospekti, 31, AMEA Nizami adına Ədəbiyyat İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

**Avtoreferat** «_____» __________ 2013-cü ildə göndərilmişdir.

Dissertasiya
Şurasının elmi katibi,
filologiya üzrə elmlər doktoru: **İmamverdi Yavər oğlu Həmidov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Əsası islam dini olmaqla digər dini və fəlsəfi dünyagörüşlərdən də təsirlənən təsəvvüf, düşüncənin sərhədlərini kifayət qədər genişləndirmiş, bir yandan dini, digər yandan təsəvvüfi terminlərlə dili zənginləşdirmişdir. Bu mürəkkəb və çoxşaxəli düşüncə tərzi, Allahla insanı mümkün qədər yaxınlaşdıraraq ona qarşı olan qorxunu sevgi ilə əvəz etmiş və təfəkkürə sonsuz imkanlar açmışdır. Bu baxımdan bədii fikir tariximizin keçmişinə diqqət yetirərkən, onun ədəbi-estetik meyarlarla müəyyənləşən tarixi mərhələlərinin ideoloji əsasları sufi təlimi və təriqətlərin inkişafı ilə də ciddi şəkildə əlaqəli olduğunu müşahidə edirik.

XIII əsrdə yaranan «Səfəviyyə» təriqətinin Azərbaycan da daxil olmaqla, Yaxın Şərqin ictimai-siyası və bədii-estetik fikir tarixində çox böyük rol oynaması danılmaz həqiqətdir. Məhz, bu təriqətin fəaliyyəti nəticəsində formalaşan Azərbaycan Səfəvilər dövləti yarandığı ilkin dövrdən başlayaraq doğma dilə üstünlük verərək türkcəni dövlət dili səviyyəsinə qaldırmış və eləcə də, bu dildə yazılan ədəbiyyatı təşviq etmişdir.

«Səfəviyyə» təriqətinin təsisçisi, orta əsrlər mənəvi fikir tariximizin görkəmli simalarından olan Şeyx Səfiəddin Ərdəbilinin (v.1334) bədii irsi, xüsusi ilə Azərbaycan türkcəsində olan şeirləri, elə də əsaslı şəkildə tədqiq edilməmişdir. Ədəbiyyat tariximizdə ana dilində ilk şeir nümunələrinin faktiki olaraq XIII-XIV əsrlərdə yaşamış İ.Həsənoğlunun qəzəlləri olduğu məlumdur. Şeyx Səfiəddinin də təxminən həmin dövrdə yaşamasını nəzərə alsaq, Azərbaycan türkcəsində Həsənoğlunun qəzəllərindən sonra, onun şeirlərinin qədim nümunələr kimi, nə qədər böyük elmi əhəmiyyət daşıdığını müəyyən etmək olar. Ədəbi nümunələrin az tapıldığı bir dövrə aid olan belə şeirlərin tədqiq edilməsi isə, ədəbiyyat tariximiz üçün çox böyük əhəmiyyət daşıyır. Həmçinin, «Səfəviyyə» təriqəti və təriqətin ətrafında formalaşan ədəbiyyatın yaranması, inkişaf mərhələləri, mövzu və sənətkarlıq xüsusiyyətləri, ədəbi-estetik dəyərləri və eləcə də, Şah İsmayıl Xətai istisna olmaqla, bu təriqətə bağlı olan Pir Sultan Abdal, Qul Himmət kimi şairlərin həyatı və yaradıcılığı Azərbaycanda çox az tədqiq edilmişdir. Dissertasiyada da bu mövzuya müraciətin səbəbi, ədəbiyyat tariximizin az araşdırılan həmin sahəsini tədqiq etmək zərurətindən doğmuşdur.

**Tədqiqatın obyekti.** Dissertasiyanın tədqiq obyekti «Səfəviyyə» təriqəti ilə bağlı ən ciddi məlumatları özündə əks etdirən ayrı-ayrı vaxtlarda nəşr olunmuş kitablar və əlyazma şəklində olan çeşidli qaynaqlardır. Həmçinin, tədqiqatda Şeyx Səfiəddin Ərdəbili də daxil olmaqla, digər «Səfəviyyə» təriqət şairləri; Şah İsmayıl Xətai, Pir Sultan Abdal, Qul Himmətin əsərlərindən ibarət olan müxtəlif kitab və antologiyalardan, eləcə də mövzunun diktəsindən asılı olaraq ayrı-ayrı araşdırılmalardan istifadə edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi, irfani və təsəvvüfi dünyagörüşü, ədəbi-estetik ifadə tərzi və mövzusuna görə orijinallığı ilə seçilən, həmçinin xalqın duyğu və düşüncələrini ifadə etməsi baxımından digər ədəbiyyatlardan fərqlənən «Səfəviyyə» təriqət ədəbiyyatını tədqiq etməkdir. Bununla əlaqədar olaraq qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- Sufizmin yaranması, yayılması və islam dünyasının əksər bölgələrində olduğu kimi Azərbaycanda da, bu məslək tərəfdarlarını ətrafında birləşdirən böyük təriqətlərin və belə təriqətlərdən biri olan «Səfəviyyə»nin təşəkkül tapması tarixinə diqqət yetirmək,
- «Səfəviyyə» təriqəti ilə bağlı olan mənbə və araşdırmalardan yararlanaraq bu təriqətin formalaşmasını, digər dini və təsəvvüfi fikir axınları ilə əlaqəsini və həmin cərəyanlardan təsirlənməsini aydınlaşdırmaq,
- Türk təriqət şeirinin yaranması və inkişaf tarixinə diqqət yetirmək və bu ədəbiyyatının «Səfəviyyə» təriqət poeziyasının formalaşmasında təsirini müəyyənləşdirmək,
- «Səfəviyyə» təriqət ədəbiyyatının səciyyəvi tərəflərini üzə çıxarmaq, eləcə də mövzu, janr və sənətkarlıq xüsusiyyətlərini tədqiq etmək,
- «Səfəviyyə» təriqətinə bağlı olan şairlərinin həyat və yaradıcılığını araşdırmaq və bu şairlərin ədəbiyyat tariximizdəki mövqeyini müəyyənləşdirmək.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Mövzunun tədqiqində əsasən, ədəbi-fəlsəfi və tarixi-müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** «XV-XVI əsrlər Səfəviyyə təriqət şairləri» mövzusunda tədqiqat işi, Azərbaycan ədəbiyyatşünaslığında yeni bir araşdırmadır. Ayrı-ayrı tədqiqatlarda təsəvvüf və təriqətçilik poeziyasından bəhs edilsə də «Səfəviyyə» təriqətinin ətrafında yaranan ədəbiyyatın araşdırılması ilə bağlı ciddi və əsaslı iş görülməmişdir. Dissertasiya «Səfəviyyə» təriqəti və ümumiyyətlə, Azərbaycanda çox az tədqiq olunan təriqətçilik ədəbiyyatının araşdırılmasında ilkin cəhd kimi qiymətləndirilə bilər. Dissertasiya işinin elmi yeniliyini şərtləndirən amillər, araşdırmanın hər bir fəslində qoyulan məsələlərin yeni, öyrənilməmiş istiqamətlər kimi irəli sürülməsi və tədqiqata cəlb edilməsidir. Onları aşağıdakı şəkildə ümumiləşdirmək olar:

- Dissertasiyada ilk dəfə sistemli şəkildə Azərbaycanda təsəvvüfi fikirin təşəkkül tarixinə diqqət yetirilmiş, «Səfəviyyə» təriqətinin yaranması, bu təriqətin ideya qaynaqları, eləcə də kecdiyi inkişaf yolu tədqiq edilmişdir.
- «Səfəviyyə» təriqət poeziyasının mövzu, janr xüsusiyyətləri araşdırılmış və bu ədəbiyyatın Ə. Yəsəvi ilə əsası qoyulan Y. Əmrə, Q. Abdal və b. şairlər tərəfindən davam etdirilən türk təriqət şeirindən, eləcə də xalq ədəbiyyatından ciddi şəkildə qaynaqlandığı müəyyənləşdirilmişdir.

- Dissertasiyada ilk dəfə Şeyx Səfiəddin Ərdəbilinin həyatı və yaradıcılığı ətraflı şəkildə araşdırılmış və onun poeziyasının anadilli şeirimizin ilkin nümunələri kimi xüsusi əhəmiyyət daşıdığı qeyd olunmuşdur. Həmçinin, tədqiqat işində, orta əsrlər türk xalq şeirinin qüdrətli təmsilçilərindən olan səfəvi-qızılbaş şairləri Pir Sultan Abdal və Qul Himmət haqqında verilmış məlumatlar da dissertasiyanın yeniliklərindəndir. Eyni zamanda dissertasiyada yenilik, orta əsrlər bədii fikir tariximizə müasir dövrün reallığından baxılması ilə bağlıdır. Belə ki, sovet hakimiyyəti vaxtında obyektiv səbəblərdən yazılan araşdırmalar birtərəfli şəkildə, tamamı ilə ideoloji əsaslarla aparılmışdır. Bu üzdən problemə müstəqillik dəyərlərinin verdiyi sərbəst tədqiqat imkanlarından yararlanaraq yanaşılması da yenidir və əvvəlki araşdırmalardan fərqlənir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Bu tədqiqat, bədii-fəlsəfi fikir tariximizə aid bir əsər kimi gələcək elmi araşdırmalar üçün elmi-təcrübi əhəmiyyət daşıya bilər. Belə ki, dissertasiyada elmi müşahidə və ümumiləşdirmələrin nəticəsi kimi meydana çıxan mülahizə və elmi qənaətlərdən orta əsrlər və hətta sonrakı dövrlərdə bədii fikir tariximizdə özünəməxsus rol oynayan təriqətçilik ədəbiyyatının tədqiqində istifadə edilə bilər. Həmcinin, dissertasiyadan ədəbiyyat tarixi üzrə nəzəri müntəxəbatların hazırlanmasında və sufi-irfani mövzuların təqdiqi zamanı nəzəri qaynaq, o cümlədən ali məktəblərin filologiya fakültələrində orta əsrlər Azərbaycan ədəbiyyatının tədrisi zamanı vəsait kimi istifadəsi mümkündür.

**Dissertasiyanın aprobasiyası.** Mövzu AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun "Orta əsrlər Azərbaycan ədəbiyyatı" şöbəsində yerinə yetirilmişdir. Dissertasiya işinin əsas elmi nəticələri dissertantın AAK-nın müəyyən etdiyi nəşrlərdə dərc edilmişdir.

**Dissertasiyanın qurluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunan ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın «**Giriş**» hissəsində mövzunun akuallığı, tədqiqatın elmi yeniliyi, məqsəd və vəzifələri, elmi-praktik əhəmiyyəti, metodoloji əsasları, aprobasiyası haqqında məlumat verilir.

**«Azərbaycanda təsəvvüfi fikir və «Səfəviyyə» təriqəti»** başlıqlı I fəslin **««Səfəviyyə» təriqəti mənbə və araşdırmalarda»** adlanan ilk yarımfəslində çoxsayli mənbə və araşdırmalardan söz açılır və qeyd olunur ki, XIII əsrdə yaranan «Səfəviyyə» təriqəti ilkin formalaşdığı vaxtdan sosial-siyasi hadisələrlə ən yaxından əlaqəsi olan bir təriqət kimi həmişə diqqət mərkəzində olmuşdur. Buna görə də, ən müxtəlif qaynaqlardan səfəvilər haqqında kifayət qədər məlumat almaq mümkündür.

Həmin qaynaqlar içərisində İbn Bəzzaz adı ilə məşhur olan Təvəkkül bin İsmayıl tərəfindən 1357-ci ildə qələmə alınmış “Səfvəttüs-səfa” və yaxud digər adı “Məhavibüs-səniyyə, fi mənaqibüs-Səfəviyyə” kimi tanınan əsərin adını xüsusi ilə qeyd etmək lazımdır. Əvvəla, bu əsər «Səfəviyyə» təriqəti haqqında ilkin və əsaslı mənbədir. Digər tərəfdən, sonralar bu təriqət haqqında yazan əksər əsər müəllifləri məhz, İbn Bəzzazın bu qiymətli əsərindən yararlanmışlar.

Şeyx Hüseyn oğlu Abdal Zahidinin “Silsilətün-nəsəbi-Səfəviyyə”, İsgəndər bəy Türkmanın “Tarixe aləmarayi Abbasi”, anonim müəllif tərəfindən yaziya alınmış “Aləm-arayi Şah İsmayıl”, Əbdülhəsən b. İbrahim Qəzvinin “Fəvaidüs-Səfəviyyə”, Sədrəddin Sultan əl-Əmininin “Fütuhati-şahi”, Fəzlullah b. Ruzbexan Xuncinin “Tarixe aləmarayi Amini”, Əhməd b. Qəffari Qəzvinin “Tarixe cəhanara”, Cəlaləddin Məhəmməd Münəcimbaşının “Tarixe Şah Abbas Səfəvi”, Yəhya b. Əbdüllətif Qəzvinin “Lübbut-təvarix”, Münşi Budaq Qəzvininin “Fütuhati-şahi”, Qiyasəddin b. Hüsaməddin əl-Hüseyni Xondəmirin “Tarixe həbibüs-siyər fi əfradül-bəşər”, Həsən bəy Rumlunun “Əhsənul-təvarix” və s. kimi əsərlər «Səfəviyyə» təriqəti və bu təriqət şeyxləri haqqında yazılmış çox sayda əsərlərdən yalnız bir neçəsidir.

Yarandığı dövrdən bir təriqət olaraq şərqin dini-mənəvi və sosial-siyasi hadisələrinə çox ciddi təsir edən «Səfəviyyə» haqqında çox ciddi tədqiqat işləri aparılmış, Azərbaycan, Türkiyə, İran, Rusiya və digər qərb ölkələrində birbaşa və dolayısı ilə bu təriqətlə bağlı çoxsaylı əsər və məqalələr yazılmışdır. Bu araşdırmaların hər biri haqqında ayrılıqda məlumat vermək imkan xaricində olsa da, «Səfəviyyə» təriqətinə aid olan və xüsusi əhəmiyyət daşıyan bir neçə əsərin adını çəkmək çox vacibdir. O. Əfəndiyevin “Azərbaycan Səfəvilər dövləti”, F.Sümərin “Safevi devletinin Kurulmasında ve Gelişmesinde Anadolu Türklerinin Rolü”, Mişel Matsuinin “The origins of the safawids”, Əhməd Tacbəxşin “İran dər zamane Səfəviyyə”, Mirzə Abaslının “Safevilərin kökenine dair”, Əhməd Kəsrəvinin “Şeyx Səfi və təbareş”, Z. V. Toganın “Sur l’origines des Safawides” Minorskinin “The Poetry of Şhah İsmayıl I” və s. kimi kitab və məqalələrin hər birində «Səfəviyyə» təriqəti haqqında kifayət qədər dolğun məlumat əks olunmuşdur.

I fəslin **«Azərbaycanda sufi ideyaları və “Səfəviyyə” təriqətinin təşəkkülü»** adlanan II yarımfəslində orta əsrlərdə islam dünyasının hər yerində olduğu kimi, Azərbaycanda da sufi ideyalarının geniş yayılmasından və nüfuzlu şeyxlərin yetişmişməsindən söz açılır və göstərilir ki, Azərbaycanda təsəvvüfi fikrin formalaşmasında Şeyx Şəhabədin Sührəvərdinin (v.1168) fəaliyyəti və onun tərəfindən əsası qoyulan «Sührəvərdiyyə» təriqətinin əhəmiyyəti xüsusi ilə böyükdür.

Bu bölmədə, həmçinin Azərbaycanda «Sührəvərdiyyə» kimi ortodoksal təriqətlə bərabər, heterdoksal təriqət tərəfdarlarının böyük təsirə malik olduğundan bəhs olunur. F. Köprülünün qeydlərinə görə, «X əsrdən etibarən, türklər arasında bəzi zahid və dərvişlərə “baba” deyilməsi haqqında məlumatlar var. XII əsrdən etibarən “Baba” ünvanlı sufilərə daha çox Güney Azərbaycanda, xüsusən də Təbriz şəhərində təsadüf edilmişdir»[1] Orta əsr qaynaqlarına diqqət yetirərkən F. Köprülünün yuxarıdakı fikrinin heç də yanlış olmadığı üzə çıxır. Belə ki, 1242-ci ildə Təbriz şəhərində Baba Həsən Vəli Təbrizi tərəfindən təsis edilmiş təkkə ətrafında çox sayda baba adlandırılan sufilərin cəmləşdiyi və bu sufilərin öz təlimlərinin təbliğ etdikləri qaynaqlarda öz əksini tapmışdır.[2]

**I fəslin «“Səfəviyyə” təriqətinin nəzəri-ideoloji əsasları»** adlanan III yarımfəslində bildirilir ki,“Səfəviyyə” təriqəti yarandıqdan sonra ayrı-ayrı vaxtlarda Azərbaycanda, eləcə də islam dünyasının müxtəlif yerlərində mövcud olan çeşidli fikir və cərəyanlarla təmasda olmuşdur. Təbii olaraq həmin fikir və cərəyanlar bu təriqətin mistik təlimində öz təsirini buraxmışdır. Bu sufi təlimləri içərisində «Sührəvərdiyyə» təriqət ənənələrinin «Səfəviyyə»nin formalaşmasında daha ciddi rol oynaması şübhəsizdir. Qaynaqlara görə, Şeyx Səfiəddindən başlayaraq bu təriqətin irşad şəcərəsində Şeyx Zahid Gilaninin (v.1253), Şeyx Cəmaləddin Gilaninin (v.1253), Şeyx Mahmud Əhərinin (XIII), Rüknəddin Səccasinin, Qütbəddin Əbubəkr Əbhərinin adları çəkilir və təriqət silsiləsi VI həlqədə «Sührəvərdiyyə» təriqətinin yaradıcısı Şeyx Əbu Nəcib Sührəvərdiyə çatır. Hər iki təriqətin, istər «Sührəvərdiyyə», istərsə də «Səfəviyyə»nin ilkin dövrlərindəki üsul və ayinlərini tutuşdurarkən də çox ciddi bənzərliklər üzə çıxır.

«Səfəviyyə» təriqətinin təşəkkül tapdığı vaxtlarda, Azərbaycanda ortodoksal sufi təriqətləri ilə yanaşı, islam şəriətinə etinasız yanaşan (heterodoksal) təsəvvüfi cərəyanların da geniş şəkildə yayıldığı mənbələrdən məlumdur. Qaynaqlara görə, qələndərilik və heydərilik kimi təriqətlərə məxsus müridlər Azərbaycanın bir çox bölgələrində; Təbriz, Şirvan, Marağa, xüsusi ilə də səfəviliyin mərkəzi olan Ərdəbildə daha çox yayılmışlar. “Səfvəttüs-səfa” da qələndəri dərvişləri ilə bağlı xeyli sayda hekayə verilmişdir[3]. Həmin hekayələrdən aydın olur ki, Şeyx Səfiəddin onların təsəvvüfi dünyagörüşlərindən heç də xoşlanmamış, hətta onları tövbə etdirmişdir. Sonrakı vaxtlarda isə, əksinə, onun xələfləri qələndərilərə çox isti münasibət göstərmiş və hətta, Xətai bir şeirində qələndəriləri öyərək bu məslək tərəfdarlarını iki aləmin sultanı adlandırmışdır .

---

[1] F. Köprülü. Edebiyyat araşdırmaları, Ankara: TTK basımevi,1986, s.139.
[2] Hafiz Hüseyn İbn Kərbəlayi. Rövzətül çenan II c. Tehran, 1344 s. 49.
[3] İbn Bəzzaz Ərdəbili. Səfvəttüs-səfa, Tehran, 1376, s. 34.

Bu baxımdan digər bir təriqətin adını da xüsusi olaraq qeyd etmək lazımdır. Qələndərilik cərəyanın içindən doğulan «Heydəriyyə» təriqətinin «Səfəviyyə» üzərində buraxdığı iz bu təriqətin sonrakı mərhələsində açıq-aydın hiss olunur. Öncə qeyd edildiyi kimi, yarandığı vaxtda tamamilə ortodoksal islami bir təriqət olan «Səfəviyyə»nin batiniliyə meyillənməsində, məhz «Heydərilik» kimi heteredoksal cərəyanın tərəfdarlarının bu təriqətə sızmasının ciddi rolu olmuşdur. İlk dəfə, "İsnai-əşəriyyə" imamlarının simvolu olaraq 12 dilimli tacı başına qoyan Qütbəddin Heydər, üzünü təraş etdirməsinə rəğmən gur bığ saxlamış və öz qəribə görkəmi, geyimi və rəftarı ilə seçilmişdir. Səfəvilər də Şeyx Heydərin təriqətə rəhbərlik etdiyi dövrdən başlayaraq heydərilər kimi "Heydəri" adlandırılan 12 dilimli tacdan istifadə etmişlər. Məhz, həmin dövrlərdən başlayaraq «Səfəviyyə» adı ilə məşhur olan təriqət başlarına taxdıqları qırmızı rəngli 12 dilimli taca uyğun olaraq "Qızılbaş" adlanmağa başlamış və bu təriqət tərəfdarları isə, qızılbaşlar adı ilə məşhurlaşmışdır.

Beləliklə, XIII-XIV əsrlərdə islam dünyasının hər yerində olduğu kimi Azərbaycanda sufi ideyaları geniş yayılmış, zəngin təriqətçilik ənənələri formalaşmışdır. Belə dövrdə yaranan «Səfəviyyə», az bir vaxtda ətrafına çoxsaylı müridləri toplayan nüfuzlu bir təriqətə çevrilmişdir

**Dissertasiyanın II fəslı «"Səfəviyyə" təriqət ədəbiyyatının ideya qaynaqları, mövzu və janr xüsusiyyətləri»** adlanır və iki yarımfəsildən ibarətdir. Bu fəslin **«Təsəvvüf ədəbiyyatı və türk təriqət poeziyası»** adlanan ilk yarimfəslində qeyd olunur ki, təsəvvüfi fikrin türklər arasında yayılması islam dinin bu xalq tərəfindən qəbul edilməsi ilə təxminən eyni vaxta düşür. İslam dini ilə qarşılaşaraq qısa müddət ərzində ümumislam ailəsinə daxil olan türklərin mədəniyyətində və ədəbiyyatında ciddi dəyişikliklər baş vermişdir. X əsrdən etibarən yeni poetik qaydaları mənimsəyən, az sonra onların inkişafında və zənginləşməsində fəal iştirak edən türk şairləri daha çox əruz vəznində yazmağa başlamışlar. Həmin dövrdən başlayaraq bir tərəfdən Əhməd Yəsəvinin davamçıları onun ədəbi ənənələrinə bağlı qalaraq heca vəznində xalq üçün çox sadə və anlaşıqlı əsərlər meydana gətirmiş, digər tərəfdən də klassik tərzin təsiri getdikcə artaraq türk hökmdar saraylarında əruz vəznində türkcə əsərlər yazılmışdır. İslam dininin təsiri ilə ilk öncə farslar, ardınca da türklər arasında geniş yayılan əruz vəzni yüksək zümrə ədəbiyyatının əsas ifadə vasitəsinə çevrilmış, milli vəzn olan hecanı ciddi şəkildə sıxışdırmışdır. Buna baxmayaraq, "təkkə"lər ətrafında yaranmağa başlayan ədəbiyyatın şeiri heca vəznini qəbul etmiş, məhz bu təşkilat sayəsində heca vəzni yazılı ədəbiy-

yatda əruzla mübarizəyə davam edə bilmişdir» [1].

Ə.Yəsəvi tərəfindən əsası qoyulan təsəvvüfi türk xalq ədəbiyyatı öz mövcudluğunu uğurla davam etdirmiş, müxtəlif təkkə və təriqətlər ətrafında birləşən şairlərin əsas bədii ifadə vasitəsi olmuşdur. Həmin ədəbiyyatın ilk olaraq ən kamil və bitkin nümunələrinə daha çox XIII-XIV əsrlərdə təsadüf edilir. Bu da həmin dövrdə yaşayıb yaratmış Y. Əmrənin yaradıcılığı ilə bağlıdır. Köprülü «Y. Əmrənin Anadolu və Rumeliyə təsir etdiyi kimi, Azərbaycandakı türklər üzərində yüzillərdən bəri təsir etdiyini bildirir»[2].

Bir türk təriqəti olan «Səfəviyyə» ocağına bağlı qızılbaş şairlərinin də Y.Əmrədən ciddi surətdə bəhrələnməsi şübhəsizdir. Bu təriqətə mənsub olan şairlərin ədəbi məhsulları ilə, Y.Əmrə poeziyasını tutuşdurarkən, fikir bir daha öz təsdiqini tapır. Xüsusən də, səfəvi-qızılbaş ədəbiyyatının ən böyük nümayəndəsi olan Xətainin yaradıcılığında Y. Əmrə tərzi daha çox hiss olunur.

Səfəvi təriqət poeziyasının qaynaqlarından söz acarkən XIV-XV əsrlər türk ədəbiyyatının ən böyük şairləridən biri olan İ.Nəsiminin (1369-1417) adını qeyd etmək çox vacibdir. Yalnız türk ədəbiyyatında deyil, ümumislam ədəbiyyatında məğrurluq və dönməzlik simvolu olan İ Nəsimi şəxsiyyəti, daşıdığı ideya və əqidəyə sədaqəti ilə yanaşı, ən başlıcası poeziyası ilə özündən sonra gələn təsəvvüfi türk ədəbiyyatına ciddi şəkildə nüfuz etmişdir. Səfəvi-qızılbaş şairləri də İ Nəsimi poeziyasından yeri gəldikcə yararlanmış, bəzi şeirlərində bu böyük şairi anaraq hörmətlə yad etmişlər. Səfəvi təriqət şairlərinin yaradıcılığında mövcud olan hürufiliklə bağlı şeirlərin, məhz Nəsimin təsiri ilə yazılması şübhə doğurmur. Təsadüfi deyil ki, səfəvi-qızılbaşlar və bu təriqətlə ciddi şəkildə əlaqəsi olan bəktaşilərin müqəddəs hesab etdikləri yeddi böyük şairdən biri də İ.Nəsimidir.

Səfəvi-qızılbaş ədəbiyyatının qaynaqlarından biri də Qayğusuz Abdalın (v.1424) şeirləridir. Q. Abdal da, Y. Əmrə kimi həm heca, həm də əruz vəznində şeirlər yazmışdır. Bu şair istər xalq şeir janrlarındakı, istərsə də klassik vəzndə yazdığı şeirləri ilə özündən sonra gələn türk təsəvvüf ədəbiyyatına, xüsusən də bəktaşi və qızılbaş təriqət şairlərinə ciddi təsir etmişdir. Araşdırıcılar Qayğusuz Abdalı ələvi-bəktaşi və qızılbaş ədəbiyyatının qurucusu hesab edirlər.

Disertasiyyanın II fəslinin **«"Səfəviyyə" təriqət ədəbiyyatının mövzu və janr xüsusiiyyətləri»** adlanan ikinci paraqrafında qeyd olunur ki, orta əsrlər ictimai-siyasi tarixinə öz silinməz damğasını vuran «Səfəviyyə» təriqəti həm də

---

[1]Abid Ə. Heca vəzninin poetikası //Azərbaycan ədəbiyyatının tarixi poetikası, II kitab, Bakı: Elm, 2006, s.318.

[2] Köprülü F. Türk Edebiyatında ilk Mütasavvıflar, Ankara: TTK Basımevi, 1991, s.283.

türk bədii düşüncə tərzində çox ciddi rol oynamışdır. Yarandıqdan az sonra böyük bir ərazidə nüfuz qazanan bu təriqət daha çox türklər arasında özünə tərəfdar toplamışdır. «Səfəviyyə»nin Azərbaycan, Anadolu və Yaxın Şərqin müxtəlif ərazilərində yaşayan türklər tərəfindən sürətlə mənimsənilməsində təriqətə məxsus şairlərin türkcə və heca vəzninin müxtəlif janrlarında yazmış olduqları təbliğat dolu şeirlərinin ciddi rol oynaması şübhəsizdir.

Səfəvi-qızılbaş ədəbiyyatı mövzusu baxımından da çox rəngarəngdir. Bu təriqətə bağlı olan şairlər müəyyən təsəvvüfi terminlərdən istifadə edərək təriqətin üsul və ayinlərindən bəhs edən şeirlər yazmaqla yanaşı, mürşid-mürid münasibətləri, Hz. Əli və əhli-beyt sevgisi, təvəlla və təbərra, qırxlar, 4 qapı, 40 məqam və b. mövzularda özünəməxsus şəkildə təriqət ədəbiyyatı yaratmışlar. Həmçinin, təriqət didaktikası, təbiətə məhəbbət və dünyaya bağlılıq mövzusundakı şeirlər də bu təriqət şairlərinin yaradıcılığında mühüm yer tutur.

«Səfəviyyə» təriqətində mürşid-mürid münasibətləri çox ciddi şəkildə qoyulmuşdur. Təriqətin qurucusu Şeyx Səfiəddinə aid edilən və bu təriqətin tərəfdarları tərəfindən müqəddəs hesab olunan "Şeyx Səfi buyruğu" adlı kitabda mürşid-mürid münasibətlərinə geniş yer verilmişdir. Təbii ki, bu münasibət təriqət ədəbiyyatına da sirayət etmiş, «Səfəviyyə» şairlərinin müntəzəm müraciət etdiyi mövzulardan olmuşdur:

Pir oldur ki, pir yurdunda otura,
Talibin nöqsan yerin yetirə.
Təsəlli veribən yola gətirə,
İrişdirə dörd qapunun cəminə [1].

bu şeir mürşidin təriqətdə mövqeyi, müridlər üzərində təsiri və onların doğru yol tutaraq pis işlərdən uzaq durmasını əks etdirir. Poetik nümunədəki fikrə görə, kamil bir insan kimi formalaşmaq istəyən şəxs təriqət sirlərinə dərindən yiyələnmiş bir mürşid tərəfindən təlim görməli və dərs almalıdır. Şairin fikrincə, mürşidlə bərabər, həmçinin təriqət yolu tutan müriddə də mühüm əxlaqi keyfiyyətlər olmalıdır. İrşad əldə etmək istəyi ilə mürid olan hər bir şəxs mütləq mənada mürşidə ciddi şəkildə tabe olmalıdır.

Bir şiə təriqəti olan «Səfəviyyə»də də Hz. Əliyə məhəbbət yüksək səviyyədə olmuşdur. Təsadüfi deyil ki, Osmanlı imperiyası ərazisində çox sayda müridləri olan və qızılbaş adlandırılan səfəvi tərəfdarları son vaxtlarda Hz. Əliyə bağlılıqlarına görə ələvi adlandırılmışdır. Təbii ki, bu təriqətə bağlı olan şairlərin yaradıcılığında Hz. Əliyə həsr olunmuş şeirlər üstünlük təşkil etmişdir.

Səfəvi-qızılbaş şairləri Hz. Əli ilə bağlı şeirlərində ənənəvi şiə motivlərinə və simvollarına xüsusi diqqət yetirmişlər. Bunlardan biri təsəvvüfdə xüsusi yeri

---

[1] Şah İsmayıl Səfəvi (Xətai) külliyyatı. Tehran: Əl-Hudə, 2004, s.309.

olan və şiə ənənəsində müəyyən qədər tranformasiyaya uğramış "Nuri-Məhəmməd" motividir. Bu motivə görə Allahın yaratdığı ilk şey Məhəmməd Əlinin nurudur. Qızılbaşlar arasında müqəddəs sayılan "Şeyx Səfi buyruğu"nda həmin motivə xüsusi yer verilmişdir; «Haq Təala həzrətləri ulu comərtliyindən və inayəti lütfündən bir yaşıl dəniz yaratdı və o dənizə nəzər saldı. Dəniz dalğalanıb coşdu, o dəryadan bir gövhər dışarı çıxdı. Haq Təala o cövhəri aldı, iki parça eylədi; biri yaşıl, digəri ağ oldu. Allah Təala həzrətləri o nuru bir yaşıl qübbə kimi asılı olan qəndilə qoydu. O yaşıl nur Hz.Məhəmmədin nurudur. O ağ nur isə Mürtəza Əlinin nurudur» [1]. Göründüyü kimi, nübüvvətin təzahürü olaraq Hz. Məhəmmədi yaradılışın başlanğıcı və hər gözəl şeyin mənşəyi kimi göstərən düşüncə tərzi, Hz. Əlini də əhatə etmişdir. Yəni, vilayət anlayışının nübüvvətin davamı kimi anlaşıldığı şiə-təsəvvüfi düşüncə tərzinə görə vilayət sahibi Hz. Əli nübüvvəti çıxmaq şərti ilə Hz. Məhəmmədə aid olan sifətləri özündə daşıyan və onun davamlılığını saxlayan hissədir. Qızılbaş şairlərinin dünyagörüşünə görə, Nuri Məhəmməd sadəcə mənəvi bir anlayış deyildir, Hz. Adəmdən başlayaraq bütün peyğəmbərlərdə təzahür edərək, sonda Hz. Məhəmmədlə, Hz. Əlinin şəxsində təcəssüm edir. Həmçinin, Nuri Məhəmməd anlayışı vəhdəti-vücudla ciddi surətdə bağlıdır[2]. Belə ki, Məhəmməd Əli cütlüyü aləmin yaradılış səbəbi, hər şeyin əsli, hər şeyi özündə əks etdirən ilkdir:

Əvvəlin əvvəli Məhəmməd Əli,
Zahir batin kərəm Şahi-Mərdanın.
Tənimiz Məhəmməd, canımız Əli,
Cümlə şadü-xürrəm Şahı-Mərdanın [3].

Bəzi şeirlərdə Hz. Əli Tanrının məzhəri, dünyanın eyni, hər varlıqda müşahidə edilən, hər üzdə görülə bilən, bir sözlə, vəhdətin kəsrətə açılan qapısıdır. Allah-Məhəmməd-Əli üçlüyündə Allah bütün ilahi sifətlərə sahib olaraq hər şeyin yaradıcısı, hər şeyin hakimi, hər şeyə gücü yetən, hər yerdə izi olan və ən nəhayət haqqın, həqiqətin özüdür. Hz.Məhəmməd peyğəmbərlik sifəti ilə şəriət sahibi olaraq insanlara doğru yol göstərən, dini təbliğ və təlim edəndir. Hz. Əli isə, vilayət sifəti ilə təriqət sahibi olaraq kamillik nümunəsidir, insanların mənəvi tərbiyələrini tamamlamaları üçün onlara örnəkdir.

---

[1] Yaman M. Erdebilli Şeyx Safi ve buyruğu. İstanbul: Ufuk Matbaası, 1994, s.137.

[2] Sarıkaya M. Saffet. Şah İsmail Hatainin şiirlerinde Hz. Ali Ankara: Azim Matbaacılık, 2004, s.264-273.

[3] Arslanoğlu İ. Pir Sultan Abdallar.İstanbul: Erman Yayınları, 1984, s.139.

Səfəvi-qızılbaş ədəbiyyatında özünə yer tapan mövzulardan biri də "Qırxlar"a həsr olunmuş şeirlərdir. Qırx rəqəmi türk mədəniyyətində, məişətində, folklorunda geniş əks olunmuşdur. «Qırx gün, qırx gecə yol getmək», «qırx otaq, qırx quldur», «qırx gün toy etmək» kimi nağıllarımızda əksini tapmış həmin rəqəmlə bağlı fikirlər, «ölüyə qırx gün yas saxlamaq», «yeni doğulan uşağın qırxını çıxarmaq» (çillə) və b. bu kimi milli adət-ənənələr türk düşüncə tərzində qırx rəqəminin çox ciddi sakral məna daşıdığını bir daha təsdiq edir. Türk xalqının bətnindən doğulan və bütünlüklə türk damğası daşıyan bir təriqətin mistik təlimində qırx rəqəmi ilə bağlı müxtəlif rəvayətlərin olması kifayət qədər təbidir:

Qırxlar meydanına vardım,
Gəl bəri ey can dedilər.
İzzət ilə salam verdim,
Gəl iştə meydan dedilər[1].

Qırx rəqəmini özündə əks etdirən və səfəvi-qızılbaş şairlərinin yaradıcılığında tez-tez təsadüf edilən mövzulardan biri də «Dörd qapı, qırx məqam»dır.

Ə.Yəsəvi təsəvvüfün nəzəri və tətbiqi məsələlərindən bəhs edən "Fəqrnamə" risaləsində sufilərin təriqət içərisindəki qarşılaşdıqları məqamları şəriət, təriqət, mərifət, həqiqət kimi dörd mərtəbəyə bölmüş və hər mərtəbənin də on məqamı olduğunu bildirmişdir [2]. Sonralar, başqa bir çox türk təriqətlərində olduğu kimi, «Səfəviyyə» də xüsusi önəm daşıyan həmin məqam və hallar təriqət ədəbiyyatına da sirayət etmiş və səfəvi şairlərinin müntəzəm şəkildə müraciət etdiyi mövzulardan olmuşdur:

Dörd qapı, qırx məqam, yetmiş iki qat,
Məhəbbət dedilər təcəlliyi zat,
Mömünə, müslümə xeyir, nəsihət,
Məhəbbətdən keçən həqdən də keçər [3].

«Səfəviyyə» təriqətində digər rəqəmlərin də simvolikası xüsusi yer tutur. Təbii ki, bu təriqət şairlərinin yaradıcılığında da öz əksini tapmışdır. «On iki şərt», «On yeddi kəmərbəst və on dörd məsum», «Üç sünnət, yeddi fərz», «On iki xidmət» və s. kimi təriqət ənənəsində özünəməxsus məna daşıyan və rəqəmlərlə ehtiva olunan istilahlardan, səfəvi şairləri təsəvvüfi mövzuda yazdığı şeirlərində sıx şəkildə yararlanmışlar.

Beləliklə, ədəbi-estetik ifadə tərzi, mövzu və janr əhatəsi, eləcə də terminologiyası və dünyagörüşü baxımdan tamamilə orijinal bir ədəbiyyat olan

---

[1] Şah İsmayıl Səfəvi (Xətai) külliyyatı. Tehran: Əl-Hudə, 2004, s. 359.
[2] Xoca Əhməd Yəsəvi. Divani –hikmət, Tehran: Əlhudə,2000, s. 3-9.
[3] Şah İsmayıl Səfəvi (Xətai) külliyyatı. Tehran: Əl-Hudə, 2004, s. 359.

«Səfəviyyə» təriqət poeziyası ideya qaynaqları baxımından milli köklərə bağlıdır. Şifahi xalq ədəbiyyatının zəngin ənənələrindən də ciddi şəkildə yararlanan bu təriqətə bağlı olan şairlərin yaradıcılığı özündən əvvəlki çoxəsrlik türk təriqət poeziyasının uğurlu davamıdır.

**«Səfəviyyə təriqətinə bağlı olan şairlər**» başlıqlı III fəslin «Şeyx **Səfiəddin anadilli ədəbiyyatın ilkin nümayəndələrindən biri kimi**» adlanan I yarımfəslində bildirilir ki, "Səfəviyyə" təriqətinin qurucusu Səfiəddin Ərdəbili (v.1334) böyük sufi-mütəfəkkir olmaqla yanaşı, həm də bədii yaradıcılıqla məşğul olmuş, gözəl şeir nümunələri yazmışdır.

Müxtəlif ərazilərdə yaşayan çeşidli millətlərin nümayəndələri tərəfindən mürşidi-kamil kimi qəbul edilən və onlar tərəfindən həmişə "piri-türk" adlandırılan Şeyx Səfiəddinin müridləri içərisində türklər üstünlük təşkil etmişdir. Öz milli mədəniyyətlərinə sıx bağlı olan sadə türklərin daim əhatəsində olan Şeyx Səfiəddinin ana dilində şeir yazması kifayət qədər təbidir. Məlumdur ki, Ə. Yəsəvidən başlayaraq bir çox türk sufiləri təsəvvüfi görüşlərini yaymaq üçün çox zaman poeziyanın imkanlarından geniş istifadə etmişlər. Şeyx Səfiəddinin də bu imkanlardan yararlanması heç şübhə doğurmur.

Şeyx Səfiəddin türkcə şeirlərində bu dilin ifadə incəliklərindən ustalıqla yararlanmışdır. Onun ana dilində yazdığı şeirlərində konkretlik, aydınlıq, üslub sadəliyi, dil və ifadə gözəlliyi özünü bütünlüklə büruzə verir:

Ey rövnəqi baharü çəmən, gülmüsən, nəsən?
Ey ixtiyarı əldən alan, bilmisən, nəsən,

Dövri yüzündə səbzeyi-xəttin görən deyər
Reyhanmısan, bənövşəvü-sünbülmüsən, nəsən?

Xoş cəngcu gəlür gözümə qaşu-kiprigün
Ey gözlərü hərami, qərovulmusan, nəsən?

Ey könlümün xərabəsi ahular oynağı,
Divanələr yatağı məgər bilmisən, nəsən.

İranlı alim Baba Səfəri bu qəzəlin mükəmməliyi ilə bağlı xoş söz deməkdən çəkinməyərək; «Türk dilini bilənlər bu qəzəlin nə qədər mükəmməl və ədibanə olduğunu müəyyən edərlər» – fikrini söyləmişdir [1].

Orta əsrlər mənəvi fikir tariximizin görkəmli simalarından olan Şeyx Səfiəddin Ərdəbilinin bədii irsini, xüsusi ilə də Azərbaycan türkcəsində olan şeirlərinin tədqiq edilməsi xüsusi əhəmiyyət daşıyır. Ədəbiyyat tariximizdə ana

---

[1] Baba Səfəri. Ərdəbil dər gozərgahe tarix, I c. Tehran: Bəhmən, 1353, s. 65-66.

dilində ilk şeir nümunələrinin faktiki olaraq XIII-XIV əsrlərdə yaşamış İ.Həsənoğlunun qəzəlləri olduğu məlumdur. Şeyx Səfiəddinin də təxminən həmin dövrdə yaşamasını nəzərə alsaq, Azərbaycan türkcəsində Həsənoğlunun qəzəllərindən sonra, onun şeirlərinin qədim nümunələr kimi nə qədər əhəmiyyət daşıdığını müəyyən etmək olar. Ədəbi nümunələrin az tapıldığı bir dövrə aid olan belə şeirlərin təqdiq edilməsi isə ədəbiyyat tarixi baxımından çox böyük əhəmiyyət daşıyır.

III fəslin **«Səfəvi-qizilbaş şairləri (XV-XVI əsrlər)»** adlanan II yarımfəslində ayrı-ayrı qızılbaş şairlərindən söz açılır. İlk öncə qeyd olunur ki, səfəvi-qızılbaş ədəbiyyatının yaradıcısı olmaqla yanaşı, ən böyük nümayəndəsi də çox şübhəsiz ki, Ş.İ.Xətaidir. O, yaradıcılığı ilə yalnız Azərbaycan ədəbiyyatına deyil, bütünlüklə türk ədəbiyyatına yeni bir nəfəs gətirmiş, onu istər forma və janr, istər də ideya və məzmun baxımından xeyli zənginləşdirmişdir.

Xətainin təriqət piri olması, yəni tərəfdarları arasında mürşidi-kamil kimi qəbul edilməsi onun şeirlərinin müridləri olan qızılbaş türkmən tayfaları tərəfindən çox böyük sürətlə mənimsənilməsinə, hətta xüsusi mahiyyət daşıyaraq təriqət ayinləri keçirilərkən əzbərdən söylənməsinə yol açmışdır. Səfəvi-qızılbaşların müqəddəs hesab etdikləri və günümüzə qədər gəlib çatmış “Şeyx Səfi buyruğu” adlandırılan kitabda Xətainin şeirlərinə tez-tez təsadüf edilməsi, onun bir şair kimi hələ yaşadığı vaxtda nə qədər məşhur olduğunu sübut edir.

Xətainin yaradıcılığının mühüm bir hissəsini təşkil edən təriqətçiliklə bağlı şeirləri daha çox heca vəznindədir. Sadə xalq arasında çox sevilən və eləcə də tez əzbərlənərək sürətlə yayılan qoşma, varsağı, gəraylı, bayatı, ilahi və nəfəs kimi janrlara Xətainin müntəzəm şəkildə müraciət etməsi heç də təsadüfi olmamışdır. Bu bir tərəfdən şairin milli köklərə sədaqəti ilə bağlıdırsa, digər tərəfdən adı çəkilən şeir formalarını çox sevən sadə türk insanının sevgisini qazanmaq və ən başlıcası isə şeyxi olduğu təriqətin-qızılbaşlığın ideyalarını məhz, xalq arasında yayaraq həmin məsləkin ətrafında daha çox insan kütləsini toplamaq məqsədi daşımışdır. Bu üzdən, şairin heca vəznindəki şeirlərinin tam əksəriyyəti təbliğat xarakterlidir. Araşdırmalar göstərir ki, qızılbaşlığın sürətlə yayılmasında, məhz Xətai və davamçılarının mənsub olduqları təriqətin ideyalarını yaymaq yönündə təbliğat xarakterli şeirləri müstəsna rol oynamışdır.

Böyük bir təriqətin mürşidi-kamili olan Xətai şeirlərində mürşid-mürid münasibətlərinə xüsusi diqqət yetirmişdir. O, hər bir sufinin riyazət və kamal mərtəbələrini aşması üçün həqiqi bir mürşiddən dərs almasının lazım olduğunu bildirir. Şairə görə, mürşid insan ruhunu onlara əmanət edilmiş ilahi vəsflərlə oyandırar, onlara həqiqəti bildirərək irfan sahibi edər və Allaha qovuşmaq yolunda bilik verər. Sufilər arasında geniş yayılmış “mürşidi olmayanın mürşidi şeytandır” ifadəsinə Xətainin münasibəti belədir:

Mürşid nəfəsi haq nəfəsidir,
Mürşid sözü tutmayanlar asidir,
Mürşid rizası Haqq rizasıdır,
Haqq deyib yolumdan ayrılmam[1].

deyən şairin yaradıcılığında, xüsusən də heca vəznində yazdığı şeirlərində qızılbaşlığın əsas prinsiplərindən olan Hz. Əli və Əhli-beyt sevgisi, On iki imam məhəbbət, Kərbəla şəhidləri üçün duyulan kədər hissi, təvəlla-təbərra (əhli-beytə məhəbbət, düşmənlərinə nifrət), 4 qapı, 40 məqam və b. mövzular xüsusi yer tutur. Səfəvi-qızılbaş ədəbiyyatının əsasını təşkil edən bu mövzular Xətai yaradıcılığı ilə ən gözəl nümunələrini tapmışdır.

Öz qüdrətli qələmi, yüksək poetik təxəyyülü ilə ədəbi məktəb səviyyəsinə qalxmış Xətai, səfəvi-qızılbaş təriqət ədəbiyyatını sistemləşdirərək P. S. Abdal, Qul Himmət, Qul Nəsimi, Dərdli və s. kimi xalq arasında çox sevilən ardıcıllar yetişdirmişdir.

XVI əsr türk xalq şeirinin ən böyük ustadlarından biri də səfəvi-qızılbaş şairi Pir Sultan Abdaldır. Bu xalq şairinin anadan olma və ölüm tarixi, eləcə də həyat və yaradıcılığı haqqında dəqiq bir məlumat yoxdur. Başqa bir çox sufi təriqət şairləri kimi P. S. Abdalın da həyatı əfsanələşmişdir. Hətta doğum tarixi dəqiq bilinməyən bu şairin yaşadığı dövr, onu yetişdirən mühit və qismən də olsa həyatı haqqında məlumatı onunla bağlı şeirlər yazmış başqa şairlərin yazdıqlarından, xüsusən də öz yaradıcılığından əldə etmək mümkündür.

P. S. Abdalın həyat və yaradıcılığı ilə bağlı Türkiyədə ciddi tədqiqat işləri aparılmış, haqqında çoxlu sayda elmi əsər və məqalələr yazılmışdır. Həmin əsər və məqalələrdən Pir Sultan Abdalın həyatı və yaradıcılığı haqqında mümkün qədər məlumat verilmişdir.

P. S. Abdal öz şeirlərində mənsub olduğu təriqətin dünyagörüşünü, din anlayışını ifadə etməklə yanaşı, həmçinin, başına gələnləri, qarşılaşdığı hadisələri, çəkdiyi iztirablar və eləcə də həyatının ən müxtəlif tərəflərini ifadə etmişdir. Ona görə də şeirlərində əks olunmuş bəzi qeydlərə əsasən tədqiqatçılar bu şairin yaşadığı dövrü müəyyən etməyə çalışmışlar:

Məğribdən çıxar görünü-görünü,
Kimsə bilməz övliyanın sirrini,
Koca Heydər şahi-cihan torunu,
Əsli, nəsli gözəl imam gəlir[2].

bu dördlüyünə əsasən araşdırıcılar P.S.Abdalın XVI əsrdə yaşadığını və Şeyx Heydərin nəvəsi, II səfəvi hökmdarı Şah Təhmasib (1524-1578) və elə

[1] Şah İsmayıl Xətai . Hazırlayanı M.R.İsmayılzadə, Tehran:Əl Hudə 2004, s. 335.
[2] Arslanoğlu İ. Pir Sultan Abdallar. İstanbul: Erman Yayınları, 1984, s.168.

həmin dövrdə Osmanlı sultanı olan Süleyman Qanuni (1520-1566) ilə müasir olduğunu bildirirlər. Digər şeirlərinə də diqqət yetirərkən araşdırıcıların heç də yanılmadığı, şairin məhz həmin dövrdə yaşadığı bir daha təsdiqini tapır:

Gözəl şahım çox yerlərdən görünür,
Əsli nədir, nəyə verdin Bağdadı? [1]

Osmanlı hökmdarı Qanunî Sultan Süleymanın 1534-cü ildə səfəvilərin əlində olan Bagdadı Osmanlı ərazisinə qatması, səfəvi tərəfdarı olması tədqiqatçılar tərəfindən birmənalı olaraq qəbul edilən Pir Sultan Abdala ciddi şəkildə təsir etmiş və həmin tarixi hadisəni şair yuxarıdakı şeirində ifadə etmişdir.

P. Sultanın yaşadığı XVI əsrdə doğulub boya başa çatdığı Anadoluda baş verən dini və ictimai-siyasi hadisələr heç şübhəsiz ki, onun həyatında və yaradıcılığında mühüm rol oynamışdır. Elə ona görə də, şairin həyatına və bədii yaradıcılığına təsir edən bu hadisələrə diqqət yetirmək çox vacibdir. Həmin vaxtlarda iki qüdrətli türk dövləti, Səfəvi və Osmanlı imperiyalarının Şərqi Anadolu uğrunda apardığı amansız rəqabət tarixdən məlumdur. Bu ərazidə söz sahibi olmaq istəyən səfəvilər öz dini ideologiyaları olan qızılbaşlıqdan məharətlə istifadə edirdilər. Səfəvi hökmdarları Anadoludakı müridləri ilə daim əlaqə saxlayır, onları öz xəlifələri vasitəsi ilə mütəmadi olaraq təlimatlandırırdılar. Səfəvilərin Anadoluda apardığı şiə təbliğatı osmanlılar tərəfindən dövlətin birliyini parçalayacaq bir təhdid olaraq nəzərə alınmış və onları bu təhlükənin qarşısını almaq üçün təcili tədbirlər görməyə məcbur etmişdir. Hakimiyyəti yenicə ələ keçirən xaraktercə möhkəm iradəli, məğrur və qəddar bir insan olan Sultan Səlim (1512-1520) Osmanlı imperiyasına çox ciddi şəkildə təhlükə törədən Səfəvi tərəfdarlarını zərərsizləşdirmək üçün amansız tədbirlərə əl atmışdır. Bu da əks təsir oyatmış, osmanlılar əleyhinə saysız-hesabsız qızılbaş üsyanlarına səbəb olmuşdur. Bəzi araşdırıcılar şairin həmin dövrdə baş vermiş üsyanların birində iştirakı və hətta üsyana rəhbərlik etməsi, məhz elə ona görə də həbs edilərək Osmanlı məmuru Xızır Paşa tərəfindən edam etdirilməsi qənaətindədirlər .

P.S.Abdal ciddi mədrəsə təhsili almasa da mənsub olduğu təriqətin üsul və ayinlərini çox mükəmməl bir şəkildə mənimsədiyi məlumdur. Kiçik yaşlarından ayini-cəmlərdə iştirak edən, saz çalan, Y.Əmrənin, Q.Abdalın, Ş.İ. Xətainin və özündən əvvəlki başqa bir çox xalq şairlərinin yaradıcılığına ciddi şəkildə bələd olan Pir Sultan Abdal həmçinin, “Kitabi-Dədə-Qorqud” da daxil olmaqla, digər xalq dastan və xalq hekayələrindən də yararlanması şübhə doğurmur.

[1] Arslanoğlu İ. Pir Sultan Abdallar. İstanbul: Erman Yayınları, 1984, s.97.

Sadə üslubu, axıcı kəlmələri və az sözlə daha çox fikir ifadə etmə qabiliyyəti ilə türk xalq şeirində önəmli yer tutan Pir Sultan Abdalın yaradıcılığı mövzu baxımından çox rəngarəngdir. Təriqət şairi olmasına rəğmən, yalnız dini inanc və təriqətlə bağlı şeirlər yazmaqla kifayətlənməmiş, onu əhatə edən mühit və eləcə də təbiət mövzusunda da çoxlu sayda şeirlər yazmışdır. Şeirlərinə diqqət yetirərkən yaşadığı coğrafiyada baş verən hadisələrə; məzhəb ayrılığından doğan müharibələr, bağlı olduğu təriqətin tərəfdarlarına edilən zülmlər, din xadimlərinin yanlış fitvaları, qazilərin harama meyilliliyi, məmurların rüşvətxor və qəddarlığı kimi hadisələrə biganə qalmadığı üzə çıxır.

Şairin yaradıcılığı içərisində təriqət şeirləri xüsusi yer tutur. Təriqət ənənəsinə görə bu yolu tutan hər bir kəs onu doğru yola yönəldən, ruh dünyasına işıq tutan bir mürşidə ehtiyac duyur. Kamil mürşidə intisab etmək və xidmətində durmaq zərurəti bütün sufilər tərəfindən təsəvvüfün çox vacib əsaslarından biri kimi qeyd olunmuşdur. P. S. Abdal da mürşidsiz yol tutan sufinin işinin asan olmayacağından söz açır:

İsa peyğəmbərə haqqı buyurdu,
Mürşidə tabe ol, yolda qalırsın.
Cəbrail Əhməd önüncə yürüdü,
Mürşidə təslim ol, yolda qalırsın [1].

Şairə görə, mürşid təriqət yolçusunun qəlbinə işıq salır, onu əyri yollardan sapındırır. Mürşidə tabe olmayan mürid, şairin qənaətincə, üz tutduğu yolda düzgün istiqamət götürə bilməz və elə ona görə məqsədinə çata bilməz. Öz təriqət görüşlərini çox sadə və aydın şəkildə ifadə edən Pir Sultan Abdal bəzi şeirlərində təsəvvüfün mistik və metafizik dərinliyinə varır:

Birlik məqamında bir gözəl gördüm,
Ləblərin şəkəri var, qəndi var,
Aşiqi çox imiş aradım, sordum,
Niçə mənçiləyin dərdməndi var.

Şairə görə, Allah vəhdət məqamında oturan və hamının aşiq olduğu bir dilbərdir. O, hər yerdə dolaşır. Gah çox uzaqda, asimandadır, həm də çox yaxındadır. Sağda-solda, qabaqda-arxada, haraya baxsaq orada görünür. Gah bağçada gül olur, gah mahnıya çevrilib dillərdə söylənir. Gah da, könül evində qonaq olub eşqini müxtəlif yollarla büruzə verir.

P. S. Abdal bir səfəvi-qızılbaş şairidir. Şair bağlı olduğu təriqətin üsul və ayinlərini, əsaslarını dərindən duymuş, düşünmüş və ona bütün varlığı və səmimiyyəti ilə inanmışdır. Məhz, bu səmimiyyətindən irəli gələrək şair, həmin duyğu və düşüncələrini çox asanlıqla, eləcə də böyük bir sadəliklə ifadə etməyə çalışmışdır.

---

[1] Arslanoğlu İ., Pir Sultan Abdallar, İstanbul: Erman Yayınları, 1984, s.142.

Orta əsrlər türk xalq şeirinin qüdrətli təmsilçilərinin biri də Qul Himmətdir. Ş.İ.Xətai və P.S.Abdaldan sonra səfəvi-qızılbaş ədəbiyyatının nüfuzlu nümayəndəsi olan bu şairin də həqiqi həyatı haqqında elə də ciddi bir məlumat yoxdur. Araşdırıcılar müxtəlif vaxtlarda yazıya alınmış cünglərdən, eləcə də xalq arasında mövcud olan şeirlərdən çıxış edərək Qul Himmətin həyatı və yaradıcılığı haqqında məlumat verməyə çalışmışlar.

Bu şairlə bağlı ilk məlumata S.N.Ergünün "Bektaşi şairleri və nefesleri" əsərində təsadüf edilir; «Həyatı haqqında elə də ciddi məlumata sahib deyilik. Yalnız "Mənaqibül-əsrar, Behcətül-əhrar" adlı əsərdə bəzi şeirləri olduğuna görə XVI əsrdə yaşadığını təxmin etmək olar. Bəktaşilərin tərtib etdikləri məcmuələrdə Xətai və Pir Sultanla bərabər ən çox bu şairin əsərlərinə təsadüf edilməkdədir. Bu da Qul Himmətin istər yaşadığı dövrdə, istər də sonrakı dövrlərdə çox məşhur olduğunu göstərməkdədir» [1].

Digər tədqiqatçı Ə. Gölpinarlı da Qul Himmətin ələvi-bəktaşi ədəbiyyatının ən qüdrətli şairlərindən biri olduğunu qeyd edir[2].

1990-cı ildə nəşr olunmuş "Bəktaşı şairləri və nəfəsləri" adlı iri həcmli əsrində Turqut Koca Qul Himmətin XVI əsrdə yaşadığını, yeniçəri ordusunda xidmət etdiyini və ordudan buraxıldıqdan sonra Osmanlı torpağını qarış-qarış dolaşdığını, elə şeirlərini də bu səyahət əsnasında yazdığını bildirir. Adı çəkilən müəllifin fikrincə, «Qul Himmət bir ara Hacı Bəktaş Vəli dərgahında dərvişlik etmiş mücərrəd əzizlərdəndir» [3].

T. Kocanın bu fikri ilə haqlı olaraq razılaşmayan İ. Qayğusuz, l Xətainin və P.S. Abdaldan sonra qızılbaşlıq ideologiyasının ən ciddi təbliğatçılarından olan Qul Himmətin Osmanlı ordusunda xidmət etməsini mümkünsüz sayır. O, T. Kocanın digər fikrinin də əksinə olaraq şairin mücərrəd olmadığını və ailə qurduğunu, Qul Himmətlilər soyadını daşıyan tötəmələrinin bu gün də mövcud olduğunu bildirir. Şairin şəxsiyyəti, yaşadığı mühit və yaradıcılığı ilə bağlı araşdırma aparan İ.Qayğusuz Qul Himmətin əldə olan şeirlərindən çıxış edərək onun həyatının mübhəm tərəflərini izah etməyə çalışmışdır.

Çox təəssüf ki, Şərqi Anadoluda doğulub boya-başa çatan və Azərbaycanla sıx bağlılığı olan bir çox xalq şairi kimi Qul Himmətin də həyatı və yaradıcılığı ilə bağlı ölkəmizdə heç bir tədqiqat işi aparılmamışdır. Əslində Qul Himmət də daxil olmaqla həmin şairlərin yaradıcılığının araşdırılması ictimai-siyasi və bədii fikir, eləcə də ədəbi dil tariximizin öyrənilməsi baxımından çox ciddi əhəmiyyət daşıyır.

---

[1] Ergün S. N. Bektaşi şairleri ve nefesleri, İstanbul: Maarif, s.170.
[2] Gölpinarlı A. Kaygusuz Abdal, Hatai, Qul Himmet. İstanbul: Ekin basimevi, 1962, s. 21.
[3] Turgut K. . Bektaşi şairleri ve nefesleri, İstanbul: Maarif Matbaasi, 1990, s.445.

Qul Himmətin yaşadığı dövr, yetişdiyi mühit və şəxsiyyəti ilə bağlı fikirlərin istinad yeri öncə qeyd edildiyi kimi şairin günümüzə qədər gəlib çatan şeirləridir. Səfəvi-qızılbaş ədəbiyyatının üçüncü böyük nümayəndəsi olan bu şairin məhz şeirlərinə istinadən soy etibarı ilə səfəvilərlə eyni kökdən gəldiyi məlum olur. Şairin dəfn olunduğu kənddə yaşayan Qul Himmətli dədələrdən toplanmış Qul Himmətə məxsus şeirdə, özü «Əslimiz Şahi-Ərdəbildən gəlir, babam Məhyəddin İrandan gəlir» kimi misralarla soy-kökünün Ərdəbildən Ruma gəldiyini, Şeyx Səfiəddinin törəmələrindən olduğunu qeyd edir[1].

"Səfvəttüs-səfa"da daxil olmaqla bütün səfəvi mənbələrində bu xanədanın soyu ilə bağlı olan qeydlərlə Qul Himmətin yuxarıdakı şeirində öz soykökünə aid verdiyi məlumat bəzi adların olmamasına rəğmən demək olar ki, üst-üstə düşür. Şairin bu şeirini ilk dəfə yazıya almış İrfan Çoban Qul Himmətin şəcərəsi ilə Şah İsmayılın şəcərəsini qarşılaşdıraraq onların əmioğlu olduğunu bildirir. Onun fikrincə, Qul Himmət Şah İsmayılın babası Şeyx Cüneydin (v.1460) Məhyəddin adlı oğlunun nəvəsidir. Amma, Şeyx Cüneydin Məhyəddin adlı oğlu olması ilə bağlı heç bir mənbədə məlumat yoxdur. Səfəvi soyundan olan bütün şeyxlər haqqında ən ciddi qaynaq hesab edilən H.Z.Gilaninin "Silsilətün-nəsəbi-Səfəviyyə", eləcə də digər mənbələrdə Şeyx Cüneydin Şeyx Heydər və Şeyx Məhəmməd adlı yalnız iki oğlu olduğu qeyd edilir. Ona görə də İrfan Çobanın yuxarıdakı fikirləri özünü doğrultmur. Şeyx Səfiəddinin Məhyəddin adlı oğlunun olması mənbələrdən məlumdur. "Silsilətün-nəsəbi-Səfəviyyə" müəllifinin qeydlərinə görə, Şeyx Səfiəddinin beş övladının birincisi olan Şeyx Məhyəddin hələ atası həyatda olarkən vəfat etmişdir[2]. Qul Himmətin məhz, həmin şəxsin törəmələrindən olması daha çox ehtimal olunur.

Qul Himmətin günümüzə qədər öz mövcudluğunu saxlamış bəzi şeirlərində yaşadığı dövr, həmin dövrdəki şəxsiyyətlər və baş verən hadisələr haqqında müəyyən məlumatlar əldə etmək mümkündür. Səfəvi və Osmanlı dövlətləri arasındakı qızğın müharibələrə, Anadoluda Osmanlı hakimiyyətinə qarşı qaldırılan çoxsaylı qızılbaş üsyanlarına şahid olan Qul Himmətin yaradıcılığında səfəvi şahlarına xüsusi məhəbbət geniş şəkildə əks olunmuşdur. Elə şeirlərindən çıxış edərək şairin çox gərgin bir dövr olan XVI əsrdə yaşadığını, səfəvi şahları Şah Təhmasib, Şah Məhəmməd Xudabəndə və Şah Abbasla müasir olduğu təxmin edilir.

Şair, özündən əvvəlki xalq şairlərindən, xüsusən də Ş. İ. Xətai və P. S. Abdaldan təsirlənmiş, şeirlərində dönə-dönə hər iki şairi vəsf etmişdir. Şairin əsərlərinə diqqət yetirərkən həm Xətainin, həm də P. S. Abdalın yaradıcılıq

---

[1] Turgut K. . Bektaşi şairleri ve nefesleri, İstanbul: Maarif Matbaasi, 1990, s.445.
[2] Zahidi Ş. H. Silsilətün-nəsəbi-səfəviyyə. Berlin: İranəşr, 1343, s.36.

yolunu ciddi surətdə izlədiyi aydın olur. Yaradıcılığı boyu ən çox təsirinə məruz qaldığı şair isə, P. S. Abdaldır. Şeirlərinə nəzərən Qul Himmətin Pir Sultan Abdalın müridi, davamçısı olduğu məlum olur:

Bir sözüm vardır tutana,
Ər oldur Haqdan utana.
Qul olmuşuz Pir Sultana,
Eşigi də qibləgahımızdır [1].

Qul Himmətin poeziyasında Pir Sultanın şeirləri ilə səsləşən çoxlu sayda şeirləri vardır. Təriqət şairi olan Qul Himmətin yaradıcılığında, şübhəsiz ki, sufi-irfani mövzular geniş şəkildə əks olunmuşdur. Şair bu kimi şeirlərində çox sadə və anlaşıqlı bir şəkildə təriqət görüşlərini verməyə çalışmışdır.

Qul Himmətin yaradıcılığında didaktik-nəsihətamiz mövzulu şeirlər xüsusi mövqeyə malikdir. Məhz, didaktik şeirlərini nəzərə alaraq Qul Himməti, nəinki səfəvi-qızılbaş ədəbiyyatının, eləcə də orta əsrlər türk xalq ədəbiyyatının ən didaktik şairi hesab etmək olar.

Sakın bir kimsənin mətahın satma,
Bülbül kimi bəzmi gülşəndə ötmə.
Hər gördüyün şeyə barmağın batırma,
Ləzzəti çıxmayan balda nəmiz var[2].

Sadə xalqın öz dilində təbii və rəvan şəkildə, xüsusi ahəngdarlıqla şeir yazmağı qərarlaşdıran şair, didaktik şeirlərində də mənsub olduğu xalqın həyat tərzindən, gündəlik təcrübəsindən gələn etnoqrafik xüsusiyyətlərə daha çox diqqət yetirmişdir.Səfəvi-qızılbaş ədəbiyyatının son böyük nümayəndəsi olan Qul Himmət də yaradıcılığında bağlı olduğu təriqətin ideologiyasına uyğun olaraq dini-şiəlik mövzusunda da şeirlər yazmışdır.

Səfəvi-qızılbaş ədəbiyyatının axırıncı ciddi təmsilçisi Qul Himmətdən sonra da «Səfəviyyə» təriqətinə bağlı olan Qul Hüseyni, Mühyiddin Abdal, Təslim Abdal, Qul Nəsimi və s. bir çox şairlər yetişmişlər. Lakin, adı çəkilən şairlərin yaşadığı vaxtlarda təriqətin mərkəzi olan Azərbaycanla həmin şairlərin birbaşa əlaqəsi olmamış, ya da az olmuşdur. Tam əksəriyyəti Şərqi Anadoludan olan bu şairlər öz yaradıcılıqları ilə mənsub olduqları təriqətin çox ciddi təbliğatçılarından olmuşlar.

Dissertasiyanın sonunda yığcam şəkildə «**Nəticə**» verilmişdir**.** Qeyd olunmuşdur ki, sufizmin və təriqətlərin yayılmasında ədəbiyyatın, xüsusən də

---

[1] Gölpinarlı A. Gaygusuz Abdal, Hatai, Kul Himmet. İstanbul: Ekin Basımevi, 1962,s.100.
[2] Özkırımlı A. Alevilik Bektaşilik ve Edebiyyatı. İstanbul: Cem Yayınevi, 1985, s. 154.

poeziyanın ciddi şəkildə rol oynaması danılmaz həqiqətdir. Bu üzdən «Səfəviyyə»nin Azərbaycan, Anadolu və Yaxın Şərqin müxtəlif ərazilərində yaşayan türklər tərəfindən sürətlə mənimsənilməsində təriqətə məxsus şairlərin türkcə və əksəriyyəti milli vəzndə yazmış olduqları təbliğati mahiyyət daşıyan şeirlərinin ciddi rol oynaması şübhəsizdir.

"Səfəviyyə" təriqəti və eləcə də bu təriqət ətrafında yaranan ədəbiyyat üçün ən uğurlu inkişaf dövrü XV əsrin sonu və XVI əsr olmuşdur. Məhz, həmin vaxtlarda şeyxliyi şahlığa çevirən Şah İsmayıl Xətai mürşidi olduğu təriqətin adı ilə bağlı olan Səfəvilər dövlətini qurmuşdur. Yeni qurulan dövlətin rəsmi dili kimi türkcəyə üstünlük verən Şah İsmayıl Xətai öz sarayı ətrafında da türk dilində yazıb-yaradan şairləri himayə etmişdir. Özü də qüdrətli şair olan Xətai yaradıcılığında döğma dilə üstünlük verməklə yanaşı, ənənəvi türk vəzni olan hecaya da biganə qalmamış, təriqət şeirlənin böyük əksəriyyətini bu vəzndə qələmə almışdır.

Çox az istisnalarla əksər şeirlərini ana dilində yazan səfəvi təriqət şairləri ənənəvi türk şeir vəzni olan hecaya və bu vəzndə olan janrlara üstünlük vermiş, demək olar ki, tamamilə milli bir ədəbiyyat yaratmışlar.

Səfəvi-qızılbaş ədəbiyyatı mövzusu baxımından da çox rəngarəngdir. Bu təriqətə bağlı olan şairlər müəyyən təsəvvüfi terminlərdən istifadə edərək təriqətin üsul və ayinlərindən bəhs edən şeirlər yazmaqla yanaşı, mürşid-mürid münasibətləri, Hz. Əli və əhli-beyt sevgisi, təvəlla və təbərra, qırxlar, 4 qapı, 40 məqam və b. mövzularda özünəməxsus şəkildə təriqət ədəbiyyatı yaratmışlar. Həmçinin, təriqət didaktikası, təbiiətə məhəbbət və dünyaya bağlılıq mövzusundakı şeirlər də bu təriqət şairlərinin yaradıcılığında mühüm yer tutur. Xalqın başa düşdüyü, onun estetik görüşlərinə və bədii-fəlsəfi təfəkkür tərzinə çox yaxın olan bu ədəbiyyat baş verən gündəlik siyasi hadisələri belə əks etdirə bilmişdir.

Ədəbi-estetik ifadə tərzi, mövzu və janr əhatəsi, eləcə də terminologiyası və dünyagörüşü baxımdan tamamı ilə orijinal bir ədəbiyyat olan «Səfəviyyə» təriqət poeziyası ideya qaynaqları baxımından çox ciddi şəkildə milli köklərə bağlıdır. Şifahi xalq ədəbiyyatının zəngin ənənələrindən də böyük ölçüdə yararlanan bu təriqətə bağlı olan şairlərin yaradıcılığı özündən əvvəlki çoxəsrlik türk təriqət poeziyasının uğurlu davamıdır. Belə ki, Ə. Yəsəvi tərəfindən əsası qoyulan Yunus Əmrə, Abdal Musa və Qayğusuz Abdal tərəfindən ən yüksək səviyyəyə qaldırılan təsəvvüfi türk xalq ədəbiyyatı bu millətin yayıldığı bütün çoğrafiyalarda yaranan çeşidli təriqətlərin ətrafında formalaşan poeziyaya təsir etdiyi kimi «Səfəviyyə» şairləri üçün də əsas ideya qaynağı olmuşdur. Bütün parametrləri ilə milli bir xüsusiyyət daşıyan «Səfəviyyə» təriqətinə bağlı olan şairlər, təbii olaraq öz yaradıcılıqlarında daha çox doğma dilə və milli heca vəz-

ninə üstünlük vermişlər. Səfəvi-qızılbaş şairləri həm klassik, həm də xalq şeir şəkillərində yaradıcılıqla məşğul olmuşlar. Daha çox heca vəznində ədəbi nümunələr ərsəyə gətirən bu şairlərin əksər hallarda müraciət etdikləri şeir janrları qoşma, gəraylı, varsağı, bayatı, ilahi, nəfəs və s. kimi xalq tərəfindən şox sevilən və əzbərlənərək qısa müddətdə mənimsənilən poetik nümunələrdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap etdirdiyi aşağıdakı məqalələrdə öz əksini tapmışdır:**

1. Qaynaqlar Şeyx Səfi poeziyası haqqında // AMEA-nın Xəbərləri, Humanitar elmlər seriyası, Bakı: 2004, s.32-39.
2. "Səfəviyyə" təriqət şairləri //Azərbaycan Elmlər Akademiyası aspirantlarının elmi konfransının materialları, Bakı: Elm, 2004, s. 358-359.
3. Qızılbaş şairi Pir Sultan Abdal // Dədə Qorqud, Elmi-ədəbi toplu, Bakı: Nurlan, 2010, III(36) s.129-137.
4. Xətainin dini və təsəvvüfi görüşləri // Dədə Qorqud, Elmi-ədəbi toplu, Bakı: Nurlan, 2010, IV(37), s.122-132.
5. Səfəviyyə-qızılbaş ədəbiyyatı: qaynaqları, mövzu və sənətkarlıq xüsusiyyətləri // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, Bakı: Nurlan, 2011 sayı XXXIV s.93-102.
6. Qızılbaş şairi Qul Himmətin həyatı və yaradıcılığı //Azərbaycanşünaslığın aktual problemləri. II beynəlxalq elmi konfransın materialları, II hissə, Bakı-Gəncə, 4-7 may 2011, s.395-401.
7. Azərbaycanda sufizm və "Səfəviyyə" təriqəti // "Müasir şərqşünaslığın aktual problemləri" beynəlxalq elmi konfransın materialları, Bakı: 1-2 iyun 2011, s.82.
8. Hece vezni ve Bu veznin Hatai Yaradıcılığında Yeri // Motif Akademi Halkbilimi Dergisi, Ankara: 2011, sayı 1 s. 45-50.
9. Şeyx Səfiəddin Ərdəbilinin həyatı və yaradıcılığı // Dil və Ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal 1(81), Bakı: 2012, s. 104-106.
10. Xətainin şeirinidə mürşid-mürid münasibətləri // Filologiya məsələləri, Bakı: Elm və təhsil, 2012, №6, s.474-479.
11. XV-XVI əsrlər Azərbaycanda ictimai-siyasi mühit və səfəvi-qızılbaş şairləri // Filologiya məsələləri, Bakı: Elm və təhsil, 2013, №2, s.390-396.
12. Azərbaycanda sufizm və "Səfəviyyə" təriqəti // AMEA Nizmi adına Orta əsrlər Azərbaycan ədəbiyyatı. Əməkdar elm xadimi, professor R.Azadəyə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, Bakı: 2013, s. 213-219.
13. "Səfəviyyə" təriqət ədəbiyyatında Hz.Əli və əhli-beyt // Dil və Ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal 2(86), Bakı: 2013, s. 287-290.

**G.K. Gubadov**

## XV-XVI CENTURİES" SAFAVIYA SECT POETS

## SUMARRY

The thesis consists of introduction, three chapters and references. There is informed about reasons discussing this subject and on what necessity it is arisen, research object of dissertation, its purposes and targets, theoretical method and work structure in the introduction.

The first chapter of the thesis is called as "Mystic thought and Safaviya sect in Azerbaijan" and it consists of 3 chapters. There is informed about the most different sources and researches related with "Safaviya" sect according to subject in 1st title of this chapter called as "Safaviya sect in sources and researches". There are reflected notes on establishment, development of Sufism that has particular role in Islamic civilization, as well as, creation of great sects combining supporters of this mystic, including formation of that religious-philosophical outlook even in Azerbaijan in the second part of the 1st chapter titled as "Sufi mystics and "Safaviya" sect becoming in Azerbaijan". There is paid attention to mystical sources of "Safaviya" sect in 3rd subchapter of 1st chapter, as well as, elucidated contact and interaction with other religious, including mystical currents; family line of sects, their religious and faith outlooks.

2nd chapter of the thesis called as "Subject and mastery features of "Safaviya" sect and literature" consists of two subchapters. There is informed about Turkic sect poetry beginning by A. Yasavi and improved by Yunus Emre and Gayghusuz Abdal and generally role of mystical poetry in formation of safavid sect literature after brief review to sufi literature in primary subchapter titled as "Mystical literature and Turkic sect poetry". There are researched the most distinctive sides of this sect literature by holding examples from several poets related with "Safaviya" in the second part of that chapter, as well as, reviewed subject and mastery features.

There are attracted creative works of different safavid poets in 3rd chapter titled as "Poets related with "Safaviya" sect". First of all, there is reviewed creative work of Sheik Safiaddin Ardabili who is sect originator and stated that his poems are of great importance as primary literary examples written in Azerbaijani-Turkish language. There are taken attention much more to poems of Shah Ismail Khatai, creator of safavid-qizilbash literature where sect views are reflected while dealing with activities of that poet in this chapter. As well as, there is investigated in 3rd chapter poetry of both Pir Sultan Abdal and Gul Himmat who were other safavid-qizilbash poets. Scientific results of research held in "result" part of the thesis are reflected.

**Г. К. Губадов**

# ПОЭТЫ СЕКТЫ СЕФЕВИЙЕ XV-XVI ВЕКОВ

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы. Во введении обосновывается причины обращения к этой теме, актуальность, научная новизна выбранной темы, цели и задачи, теоретическая и практическая значимость исследования, его теоретические методы, также представлена информация об апробации работы.

Первая глава диссертации называется «Суфийские мысли в Азербайджане и секта "Сефевийе"», она состоит из 3-х разделов. В первом из них, называемом «Секта "Сефевийе" в источниках и исследованиях», дана информация об источниках и исследованиях по проблеме секты «Сефевийе». Во втором разделе I главы под названием «Суфийские идеи в Азербайджане и образование секты "Сефевийе"» нашли свое отражение вопросы зарождения и развития суфизма, определена роль его в исламской цивилизации и формировании религиозно-философского мировоззрения в Азербайджане.

II глава диссертации под названием «Предмет и творческие особенности литературы секты "Сефевийе"» состоит из двух подразделов. Здесь после краткого рассмотрения суфийской литературы дается информация о тюркоязычной сектантской поэзии, которая была начата Ахметом Ясеви и развивалась Юнусом Эмре и Гайгусузом Абдалом, говорится о роли мистической поэзии в формировании литературной секты «Сефевийе». Суждения обосновываются примерами из творчества различных поэтов, связанных с «Сефевийе». Исследуются самые характерные черты этой сектантской литературы, рассматриваются предмет, тематика, проблематика и творческие особенности этой литературы.

В III главе под названием «Поэты, связанные с сектой "Сефевийе"» исследованию привлечено творчество различных сефевидских поэтов. Прежде всего рассмотрено творчество основателя секты Шейха Сефиеддина, отмечено, что его стихи представляют большую значимость в истории литературы как первые литературные образцы, написанные на азербайджанском тюркском языке. В этой главе, говоря о творчестве основателя сефевидской-кызылбашской литературы Шаха Исмаила Хатаи, обращено внимание и на поэтов, выражающих сектантские взгляды Хатаи. В данной главе также исследована поэзия поэтов сефевидов-кызылбашей Пир Султана Абдала и Гул Гуммата.

В «Заключении» диссертации нашли свое отражение научные итоги проведенного исследования.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ**

*На правах рукописи*

**КАДИМ КЕРИМ оглы КУБАДОВ**

# ПОЭТЫ СЕКТЫ СЕФЕВИЙЕ XV-XVI ВЕКОВ

5716.01 – Азербайджанская литература

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации на соискание научной степени
доктора философии по филологии

**БАКУ – 2013**